# “İlk ziyarət yenə də qardaşadır”

## Türkiyə KİV R.T.Ərdoğanın Azərbaycana səfərini əsas gündəm mövzusu kimi tirajladı




**Etibarlı strateji tərəfdaşlar olan Azərbaycan və Türkiyə arasında qarşılıqlı münasibətlərin daha da möhkəmlənməsi ölkələrimizin təkcə mövcud olduqları regionda yox, onun sərhədlərindən kənarda da əsas söz sahiblərindən biri kimi çıxış etməsinə səbəb olmaqdadır. Siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə ikitərəfli əməkdaşlığın bundan sonra da inkişafı Azərbaycana və Türkiyəyə yeni uğurlar vəd edir.**

Heç şübhəsiz ki, prosesin bu şəkildə vüsət almasında, bütün sahələrdə əlaqələrin uğurla inkişaf edərək strateji tərəfdaşlıq münasibətləri kimi yüksək səviyyəyə çatmasında liderlər amili də əsas rol oynayır. İstər Azərbaycan Prezidenti İlham Əliyevin, istərsə də Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı əlaqələrin inkişafına verdiyi diqqət və önəm münasibətlərimizi daha möhkəm özüllər üzərində qurur.

Yenidən Türkiyə Prezidenti seçilmiş R.Ərdoğanın andiçmə mərasimindən sonra ilk rəsmi səfərini bu gün Azərbaycana etməsi davam edən bu xoş ənənənin ölkələrimiz arasında strateji əməkdaşlığa və müttəfiqliyə verilən önəmin növbəti təsdiqidir.

Xatırladaq ki, aprelin 24-də Azərbaycan Prezidenti İlham Əliyevin seçkilərdən sonra ilk rəsmi səfərini Türkiyəyə etməsi qardaş ölkənin bir neçə yüz minlik tirajlı qəzetlərinin, xəbər portallarının, onlarla teleşirkətin əsas manşet mövzusuna çevrilmişdi. Türkiyə dövlət başçısının da seçkilərdən sonra ilk səfərini Azərbaycana edəcəyi xəbərinə qardaş ölkənin aparıcı KİV-i geniş yer ayırıb. Onlardan bəzilərini diqqətinizə çatdırırıq.

Türkiyənin nüfuzlu qəzetlərindən “Milliyet” “İlk ziyaret Baküya” başlıqlı xəbəri oxucularına çatdırıb. Türkiyə Prezidentinin mətbuat xidmətinin yaydığı məlumatı diqqətə çatdıran nəşr yazıb ki, iyulun 10-da Türkiyə Prezidenti R.Ərdoğan seçkilərdən sonra ilk rəsmi səfərini Azərbaycana edir. Ənənə davam etdirilir. Bir günlük səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə ikitərəfli və nümayəndə heyətləri arasında görüşlər planlaşdırılır. Həmin gün prezidentlər arasında ikilitərəfli əlaqələrin və işbirliyinin daha da inkişafı üçün atılacaq addımlar, eləcə də regional və beynəlxalq məsələlərlə bağlı müzakirələrin aparılması nəzərdə tutulub.

“Vatan” qəzeti isə “Cumhurbaşkanı Erdoğan'ın ilk ziyaret edeceği ülke belli oldu” başlıqlı xəbərində qeyd edib ki, iyulun 10-da R.Ərdoğan ilk rəsmi səfərini Azərbaycana edəcək. Türkiyə Prezidentinin səfəri zamanı aparılacaq danışıqlar iki ölkə arasındakı qardaşlıq əlaqələrini, birliyi və strateji tərəfdaşlığı bir daha nümayiş etdirəcək. Diqqətə çatdırılıb ki, əməkdaşlığımızdakı nailiyyətlərin əsasında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri dayanır.

“Sabah” qəzetinin “Erdoğan'ın ilk ziyareti Azerbaycana” başlıqlı xəbərində isə bildirilib ki, hər iki dövlət başçılarının seçkilərdən sonra ilk rəsmi səfərlərini bir-birlərinə etmələri adət halını alıb. Bu, təməlində qırılmaz dostluq və qardaşlıq telləri dayanan Azərbaycan-Türkiyə münasibətlərində strateji önəm daşıyır. Hər iki ölkə çətin durumlarında maddi və mənəvi yardımlarını bir-birindən əsirgəməyib. Azərbaycan-Türkiyə əlaqələrinin dünyada analoqu yoxdur.

Türkiyənin ən çox oxunan qəzetlərindən “Akşam” “Cumhurbaşkanı Erdoğan ilk yurt dışı ziyaretini Azerbaycan'a yapacak” başlıqlı xəbər paylaşıb. Bildirilib ki, R.Ərdoğan ilk rəsmi səfərini Azərbaycana edir. Hər iki dövlətin başçıları bununla da dünyaya mesaj verirlər ki, Azərbaycan Türkiyə ilə qardaş ölkədir və bu qardaşlığı heç kim sarsıda bilməz. Bölgədə ən pozitiv, hamının marağına uyğun olan iqtisadi, siyasi, nəqliyyatla bağlı bütün layihələr Azərbaycan və Türkiyə ilə bağlıdır.

“Habertürk” qəzeti də Türkiyə Prezidentinin ilk rəsmi səfərini Azərbaycana etməsini “Cumhurbaşkanı Erdoğan geleneği sürdürecek” başlıqlı xəbərlə çatdırıb. Azərbaycan-Türkiyə münasibətlərinin bu gün özünün ən yüksək səviyyəsinə çatdığını qeyd edən nəşr ikitərəfli siyasi və iqtisadi əlaqələrin, beynəlxalq təşkilatlar çərçivəsində ölkələrin bir-birinin mövqelərini dəstəkləməsini, bütün dünya üçün nümunə olduğunu yazıb.

“Takvim” qəzeti də “Cumhurbaşkanı Erdoğan seçimler sonrası ilk ziyaretini Azerbaycan'a yapacak” başlıqlı xəbəri oxucularına çatdırıb. Vurğulanıb ki, hər iki ölkənin əməkdaşlığındakı nailiyyətlərin əsasında prezidentlər İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri dayanır. Türkiyə Prezidentinin Azərbaycana səfəri iki ölkə arasında əlaqələri qardaşlığın və qarşılıqlı dəstəyin daha yüksək səviyyəsinə çıxaracaq.

“Anadolu” xəbər agentliyi isə Türkiyə Prezidentinin iyulun 10-da ölkəmizə səfərini “Erdoğan ilk yurt dışı ziyaretlerini Azerbaycan'a yapacak” başlıqlı xəbərlə paylaşıb. Qeyd edilib ki, Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir, ən yüksək zirvədədir. Bu əlaqələr dostluq, qardaşlıq üzərində qurulubdur.

Türkiyənin tanınmış “TRTHaber” kanalı da “Cumhurbaşkanı Erdoğan'ın ilk yurt dışı ziyaretleri belli oldu” başlıqlı xəbər yayımlayıb. Bildirilib ki, Türkiyə dövlət başçısının birgünlük səfəri çərçivəsində İlham Əliyevlə təkbətək və geniş tərkibdə görüşlərdə iqtisadi, ticari, mədəniyyət, təhsil və xarici siyasətlə əlaqədar məsələlər geniş şəkildə dəyərləndiriləcək.

“AHaber” kanalı da “Cumhurbaşkanı Erdoğan seçimler sonrası ilk ziyaretini Azerbaycan'a yapacak” başlıqlı xəbərində bildirib ki, R.Ərdoğan seçkilərdən sonra ilk rəsmi səfərini Azərbaycana edəcək. Bu onu göstərir ki, Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Xüsusilə iqtisadi sahədə əməkdaşlıq bölgə üçün də çox böyük rol oynayır. Türkiyə-Azərbaycan birliyi bölgədə sabitlik yaradan bir amildir.

“Yeniakit” və “Hürriyet” qəzetləri, “haberler.com”, “yenialanya.com”, “avazturk.com”, “dunyabulteni.net”, “ilkha.com” və digər agentliklər, onlarla teleşirkət iyulun 10-da Türkiyə Prezidentinin ilk rəsmi səfərini Azərbaycana edəcəyini diqqətə çatdırıblar.

Deyilən fikirlər də bir daha təsdiq edir ki, hər iki liderin qarşılıqlı səfərləri ölkələr arasında əlaqələri qardaşlığın və qarşılıqlı dəstəyin daha yüksək səviyyəsinə çıxarır. Başqa sözlə, Azərbaycan-Türkiyə dostluğu, strateji tərəfdaşlıq münasibətləri dünya ölkələrinə model, örnək ola bilər.

***Elçin CƏFƏROV, “Azərbaycan”***